**Hüseynova Sevinc Usub qızı,**
AMEA Hüquq və İnsan Haqları İnstitutunun
Cinayət hüququ və cinayət prosesi şöbəsinin elmi işçisi,
hüquq üzrə fəlsəfə doktoru

**UOT 34:343.6**

# İNSAN ORQANLARININ ALQI-SATQISI VƏ ONLARIN TRANSPLANTASİYA MƏQSƏDİ İLƏ GÖTÜRÜLMƏSİNƏ MƏCBUR ETMƏNİN CİNAYƏT-HÜQUQİ TƏHLİLİ

***Açar sözlər:*** *insan orqanı və toxumaları, alqı-satqı, transplantasiya, donor, resipiyent, insan sağlamlığı, həkim konsiliumu, beyin ölümü, donorluğa məcburetmə, cinayət-hüquqi təhlil, qanun, normativ hüquqi aktlar.*

***Ключевые слова:*** *человеческие органы и ткани, купля-продажа, трансплантация, реципиент, здоровье человека, консилиум врачей, смерть мозга, насильственное донорство, уголовно-правовой анализ, закон, нормативно-правовые акты.*

***Keywords:*** *human organs and tissue, buying and selling, transplantation, donor, recipient, health, a consultation of physicians, brain death, enforced to donor, criminal-legal analysis, law, normative legal acts.*

Cinayət hüququ üzrə şəxsiyyət əleyhinə olan cinayətlər dedikdə, bir qayda olaraq, vətəndaşların həyatına, səhhətinə, azadlığına, şərəf və ləyaqətinə və sair bu kimi şəxsi nemətlərə qəsd edən və bilavasitə cinayət qanunvericiliyində nəzərdə tutulan ictimai təhlükəli əməllər anlaşılır ki, buna görə də Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ayrıca fəsil müəyyən edilmişdir. Şəxsiyyət əleyhinə olan cinayətlər Azərbaycan Respublikası CM-nin Xüsusi hissəsinin XVIII fəslində nəzərdə tutulmuşdur. Bu fəsildə cəmiyyətin müasir inkişaf dövründə şəxsiyyətə qəsd edən müxtəlif xarakterli ictimai təhlükəli əməllərə görə məsuliyyət müəyyən edilmişdir. Belə əməllərdən biri də insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmədir.

"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 251 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 17 noyabr 2011-ci ildə bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında qərar qəbul etmişdir. Təsdiqlənmiş sənədlər: "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası Qaydaları və Şərtləri", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının həyata keçirildiyi ixtisaslaş-

dırılmış tibb müəssisələrinin Siyahısı", "Transplantasiya üçün insan orqan və (və ya) toxumalarının götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması Qaydaları", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının zəruriliyi barədə tibbi qərarın qəbul edilməsi Qaydası"dır.

İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının qayda və şərtlərinə görə, insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün digər tibbi üsullardan istifadə etmək mümkün olmadıqda, cərrahiyyə əməliyyatı aparmaqla xəstədə olmayan və ya zədələnən orqan və (və ya) toxumaların donorun və ya insan meyitinin orqan və (və ya) toxumaları ilə əvəz edilməsinə yol verilir.

Normativ aktlarda qeyd edilir ki, transplantasiya işinin təşkili zamanı 18 yaşına çatmayan şəxslərin donor qismində cəlb edilməsi (sümük iliyinin transplantasiyası istisna olmaqla), resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliyi olan şəxslərdən orqan və (və ya) toxumaların götürülməsi, resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdəki şəxslərdən, hərbi əsirlərdən və ruhi xəstələrdən orqan və (və ya) toxumaların götürülməsi, insan orqan və (və ya) toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur edilməsi, donor və resipiyentin razılığı olmadan tibb işçilərinin transplantasiya barədə məlumat yaymaları, ölüm vəziyyətində olan potensial donorun müalicəsində və donorun ölüm aktının təsdiq edilməsində transplantoloqun və ya transplantologiya işinin təşkilində bu və ya digər formada fəaliyyət göstərən hər hansı bir şəxsin iştirakı qadağandır.

Xüsusi olaraq vurğulayaq ki, insan orqan və ya toxumalarının transplantasiyası hər zaman xeyirxah məqsədlərə xidmət etmədiyindən, insan orqanlarının qanunsuz transplantasiyası məsələsi cəmiyyətin əsas problemlərindən birinə çevrilmişdir.

İnsan alveri prosesində canlı əmtəə alveri ilə qanunsuz miqrasiya, insan orqan və toxumalarının transplantasiyası sahəsində törədilən cinayətlər arasında müəyyən əlaqə və asılılığın mövcud olduğu müşahidə edilir. Belə ki, hər il dünya ölkələrinin sərhədlərini milyonlarla insan qanunsuz olaraq keçir və onlar ən müxtəlif kriminal məqsədlərlə istifadə edilir. Bütün bunlar onu göstərir ki, dünyaya sıx inteqrasiya olunan Azərbaycan Respublikasında insan alverinin durumu əsaslı olaraq narahatçılıq doğurur. Belə təzahürlərin intensiv artımı yeni kriminal elementlərlə və xüsusiyyətlərlə zənginləşməsi insan hüquq və azadlıqları konteksində insan alveri cinayətləri ilə səmərəli mübarizə aparılmasına böyük zərurət yaradır.

Bu gün dünyada insan orqanlarının alqı-satqısı cinayəti adam oğurluğu və insanların yoxa çıxarılması halları ilə müşahidə edilir. Bu qəbildən olan cinayətlər daha geniş vüsət alıb və mütəşəkkil dəstələrin tam nəzarəti altındadır. Ölkələrdən insanlar oğurlanır, başqa adlarla müxtəlif yerlərə aparılır. Əsasən, orqan mafiyası insan oğurluğu ilə məşğul olur və oğurlanmış şəxslərin orqanları çıxarılaraq özləri qətlə yetirilirlər.

Dünyada bu cinayətin qurbanları durmadan artmaqdadır. DİN-in İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun «Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair» (2018) illik məlumatında xüsusi olaraq qeyd edilir ki, (Beynəlxalq ekspertlərin rəyinə əsaslanaraq) insan alveri – narkotik vasitələrin və saxta malların qanunsuz dövriyyəsindən sonra kriminal biznesin ən mənfəətli növlərindən biridir. İl ərzində bu növ cinayətlərdən daxil olan gəlirin məbləği təxminən 32 milyard dollar təşkil edir. Hər il böyük əksəriyyətini qadınlar və uşaqlar təşkil edən təxminən 2,5 milyon şəxs insan alverinin qurbanına çevrilir, onun cinsi istismar, məcburi əmək, dilənçilik, məişət köləliyi, orqan transplantasiyası kimi formalarına məruz qalır [7].

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə İdarəsinin illər üzrə (2005-2017) yekun statistik göstəricilərinə baxsaq, görərik ki, insan orqanlarının və ya toxumalarının alqı-satqı və transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə ilə bağlı 2009-cu ildə bir, 2011-ci ildə bir, 2014-cü ildə də bir cinayət faktı qeydə alınıb [8].

İnsan orqanının köçürülməsi ilə bağlı ilk əməliyyat 1933-cü ildə Ukraynada həyata keçirilsə də, onlar bu istiqamətdə uğur qazana bilməyiblər. İlk dövrlərdə böyrək köçürülən xəstələrin demək olar ki, hamısı ölüb. Yalnız 1954-cü ildə amerikalı həkimlər Bostonda ilk yüksək nəticəli transplantasiya əməliyyatına imza atıblar. İnsanlar üzərində təcrübədən əvvəl 1902-ci ildə avstriyalı alim E.Ulman tərəfindən itlərdə böyrək köçürülməsi aparılıb. Ancaq heyvanlar üzərində əldə olunan nəticələr insanlarda eyni effekti verməyib [10].

Azərbaycanda ilk transplantasiya əməliyyatı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə nəinki Azərbaycanda, Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə olaraq 1971-ci il martın 4-də böyrək köçürülüb. 2000-ci ildə Azərbaycan hökumətinin qəbul etdiyi qərara görə, transplantasiyasına icazə verilən orqan və ya toxumaların siyahısı müəyyən edilmişdir: ürək, ağ ciyər (ürək-ağ ciyər kompleksi), qaraciyər, böyrəklər, mədəaltı vəzi və onların seqmentləri, mədəaltı vəzi 12 barmaq bağırsaqla birlikdə, dalaq, sümük iliyi, gözün buynuz qişası. Lakin Azərbaycanda bu orqanların hamısının transplantasiyası həyata keçirilmir. Tibbin inkişaf etdiyi ölkələrdə qaraciyər, ağciyər, mədəaltı vəzi, dəri, sümüklər, ürək, böyrək, qol, əl, üz və s. orqanlarının transplantasiyası həyata keçirilir.

Amerikada keçirilən sorğu nəticəsində məlum olub ki, bu ölkə sakinlərinin yarısından çoxu (51 faizi) insan orqanlarının donoru kimi rəsmi qeydiyyata alınıb. Məsələn, ABŞ-da əksər sürücülərin sürücülük vəsiqəsindəki qeydə görə, həmin adam yol-nəqliyyat qəzası nəticəsində həlak olarsa, onun daxili orqanlarından köçürmə üçün istifadə edilə bilər. Sorğuda iştirak edən iştirakçıların əksəriyyəti bildirib ki, ailə üzvlərindən birinə kömək göstərmək və ya kiminsə həyatını xilas etmək məqsədi ilə donorluğa razıdır. ABŞ-da daxili orqan donorlarına kompensasiya ödənilir.

Azərbaycanda meyitdən orqan və ya toxumalar götürən belə donor bankları olmasa da, onun yaradılması üçün hüquqi baza var. Meyitdən orqan transplantasiyası məsələsində əsas problem beyin ölümü diaqnozunun qoyulması ilə bağlıdır. Məsələnin həllinə nail olmaq üçün ilk növbədə beyin ölümünün kriteriyaları müəyyənləşdirilməlidir.

Həyatın sonu cinayət-hüquqi mənada patoloji ölüm anı hesab olunur. Ölüm ürəyin döyünməsinin və tənəffüsün dayandığı, mərkəzi sinir sisteminin funksiyasının itdiyi andan baş verir. Həmin andan etibarən insan ölmüş hesab edilir. Orqanizmdə belə dəyişiklik yaranana qədər baş verən ölüm klinik ölüm adlanır. Klinik ölüm mərkəzi sinir sisteminin uzunsov beyinlə birlikdə fəaliyyətinin daha dərin itirilməsi, qan dövranı və tənəffüsün dayanması ilə xarakterizə olunur. Klinik ölümün davam etmə müddəti normotermiya şəraitində 8 dəqiqəyə yaxındır. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə görə, insanın ölüm anını tibb işçisi (həkim, feldşer) təsdiq edir [2, s. 268].

Əvvəllər ölüm anının başlanğıcı insanda ürək döyüntüsünün və tənəffüsün dayanması anından sayılırdı. Hazırda isə ürəyin döyünməsi həyatın mövcudluğunu təsdiq edən əsas dəlil sayılmır. İnsanın mərkəzi beyin sistemində üzvi dəyişikliyin baş verməsi isə mübahisəsiz olaraq həyatın sonu kimi qəbul edilir. D.İ.Marçenkonun fikrincə yuxarıda sadalanan əlamətlər mövcud olduqda və bundan 30 dəqiqə keçdikdən sonra bioloji ölümün baş verdiyi qeyd edilir [6, s. 22].

Hazırda bütün dünyada orqan köçürülməsinin təxminən 85-90 faizi meyitdən götürülən orqanların hesabına həyata keçirilir.

Rəsmi olaraq 2000-ci ildən Azərbaycanda orqan köçürülməsi həyata keçirilsə də, indiyə qədər meyitdən orqan götürülməsi işi həyata keçirilmir. "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Qanun 1999-cu ildə qəbul olunub. O dönəm bütün dünyada transplantasiya haqqında təsəvvürlər indiki qədər geniş deyildi, həm də son illərdə tibb aləmində daha çox yeniliklər baş verib və bütün bunlara nəzərən ölkəmizdə transplantasiya məsələlərinin günün tələbinə uyğun qurulması üçün 1999-cu ildə qəbul olunmuş müvafiq Qanunun təkmilləşdirilməsi məqsədəuyğun olardı. Həmçinin orqan bankı, donorların və donorluğa ehtiyacı olan şəxslərin reyestr sistemi yaradılmalı, beyin ölümünü dəqiq təsbit edən mərkəz təşkil olunmalı, donorluq məsələsi qanunla tənzimlənməlidir.

Hər bir cinayət əməli obyektiv olaraq ictimai təhlükəliliyə malikdir. Onun ictimai təhlükəliliyi ictimai münasibətlərə ziyan vurması ilə izah edilir. Əməlin ictimai təhlükəlilik dərəcəsi vurulan ziyanın böyüklüyü ilə, habelə bunların qəsd etdiyi obyektin xarakteri ilə müəyyən edilir. Əməlin ictimai təhlükəliliyi o mənada obyektivdir ki, bu əlamət əməlin qeyri-hüquqiliyindən və cəzalanmalı olmasından asılı deyildir. Əməl ona görə cəzalanmalı olan hesab edilir ki, o, cəmiyyət üçün təhlükəlidir [5, s. 157].

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» 25 iyun 2003-cü il tarixli 4 saylı qərarına əsasən cinayətin ictimai təhlükəliliyinin xarakteri qəsdin obyektindən, təqsirin formasından və əməlin Cinayət Məcəlləsinin 15-ci maddəsi ilə hansı cinayətlər kateqoriyasına aid edilməsindən asılıdır. Cinayətin ictimai təhlükəlilik dərəcəsi isə onun törədilmə hallarına (məsələn, cinayətkar niyyətin həyata keçirilmə dərəcəsi, üsulu, vurulmuş zərərin həcmi və baş vermiş nəticələrin ağırlığı, iştirakçılıqla törədilmiş cinayətlərdə təqsirli şəxslərin rolu və s.) əsasən müəyyən edilir [1, s. 230].

Cinayət hüquq nəzəriyyəsində üstün olan mövqeyə əsasən cinayət məsuliyyətinin hüquqi əsasını cinayət tərkibi, maddi əsasını isə cinayət təşkil edir. Cinayət tərkibinin əsas və əlavə əlamətləri fərqləndirilir. Müvafiq cinayətin yalnız spesifik cəhətlərini özündə əks etdirən cinayət tərkibi obyektiv və subyektiv əlamətlərdən ibarət olur. Cinayət hüquq nəzəriyyəsində obyektiv əlamətlərə cinayətin obyektinin və obyektiv cəhətinin, subyektiv əlamətlərə isə subyekt və subyektiv cəhətinin aid edilməsi qəbul olunmuşdur.

Azərbaycan Respublikasının CM-nin 137-ci maddəsində insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə cinayəti təsbit olunmuşdur. Bu cinayətin ictimai təhlükəliliyi insan sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edən orqan və (və ya) toxumaların tamah motivi ilə alqı-satqı obyektinə çevrilməsində ifadə olunur. Qeyd edilən cinayətin obyekti insanın sağlamlığıdır. Bu cinayətdən zərərçəkmiş qismində hər hansı şəxs çıxış edə bilər. CM-in 137.1-ci maddəsi üzrə cinayət obyektiv cəhətdən insan orqan və ya toxumalarının qanunsuz alqı-satqısında ifadə olunur.

"Əhalinin sağlamlığının qorunması haqqında" 26 iyun 1997-ci il Qanununun 40-cı və "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" 28 oktyabr 1999-cu il Qanununun 17-ci maddəsinə görə, insan oarqan və ya toxumaları alqı-satqı obyekti ola bilməz. Qanuna görə, yalnız toxuma komponentlərindən hazırlanmış köçürmə materialları və preparatları alqı-satqı obyekti ola bilər. İnsan orqan və (və ya) toxumaları dedikdə, şəxsiyyətin xarakterik xüsusiyyətlərini müəyyən etməyən anato-

mik struktur vahidi başa düşülür. İnsan orqan və ya toxumalarının alqı-satqısı dedikdə, təqsirkar tərəfindən insan orqan və ya toxumalarının əvəzi pulla (əmlakla) ödənilməklə başqa şəxsə verilməsi başa düşülür. Alqı-satqı aktı orqan və ya toxumaların başqa şəxsə verildiyi və bunun müqabilində müvafiq pul məbləğinin və ya əmlakın alındığı andan başa çatmış sayılır.

Qeyd olunan cinayət subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Təqsirkar insan orqan və ya toxumalarının qanunsuz alqı-satqısını həyata keçirdiyini dərk edir və bunu arzu edir. Cinayət tamah motivi ilə törədilir. CM-in 137.1-ci maddəsi üzrə cinayətin subyekti 16 yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

CM-in 137.2-ci maddəsində insan orqan və ya toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə cinayətinə görə müstəqil cinayət tərkibi nəzərdə tutulmuşdur. Bu cinayətin obyekti insanın sağlamlığıdır. "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" 28 oktyabr 1999-cu il tarixli Qanuna görə, orqan və (və ya) toxumaların transplantasiyası dedikdə, insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparmaqla xəstədə olmayan və ya zədələnən orqan və (və ya) toxumaların donorun və ya insan meyitinin orqan və (və ya) toxumaları ilə əvəz edilməsi başa düşülür. Qanuna görə, orqan və (və ya) toxumaların transplantasiyasına o halda yol verilir ki, digər tibbi üsullarla və meyit orqan və (və ya) toxumaları vasitəsi ilə insan həyatının saxlanması və ya sağlamlığının bərpası mümkün olmasın. Bu cinayətdən zərərçəkmiş qismində hər hansı şəxs çıxış edə bilər. Qanuna görə, aşağıdakı halarda orqan və (və ya) toxumaların götürülməsinə yol verilmir: a) donorun yaşı 18-ə çatmadıqda (sümük iliyi istisna olmaqla); b) donorun resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliyi olduqda; c) şəxs resipiyentin qulluq tabeliyində, ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olduqda, həbsdə olduqda, hərbi əsir olduqda, habelə ruhi xəstə olduqda. Donordan orqan və (və ya) toxumaların götürülməsi mütəxəssis-həkimlərin konsiliumu nəticəsində müəyyən edilir və donorun yazılı razılığı əsasında həyata keçirilir.

Qeyd edilən cinayət obyektiv cəhətdən zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə insan orqan və toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmədə ifadə olunur. «İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında» Azərbaycan Respublikası Qanununa görə, ürək, ağ ciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qara ciyər, mədəaltı vəzi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, habelə siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər orqan və (və ya) toxumalar transplantasiya üçün götürülə bilər. Adı çəkilən qanun reproduksiya vasitələri və bu məqsədlə istifadə edilən orqanlar, onların hissələrinə və (və ya) toxumalara (yumurta hüceyrələri, sperma, yumurtalıq, xaya və ya embriona), eləcə də qan və onun komponentlərinə şamil edilmir. Qanundan belə məna hasil olur ki, transplantasiyası adı çəkilən qanunla tənzimlənməyən orqan və (və ya) toxumaların götürülməsinə məcbur etmə şərh olunan cinayətin tərkibini yaratmamalıdır. Lakin CM-in 137-ci maddəsinin dispozisiyası insanın hər hansı orqan və (və ya) toxumalarının götürülməsinə məcbur etməyə görə cinayət məsuliyyəti nəzərdə tutur [4, s. 468].

Məcbur etmə zərərçəkmiş şəxsi öz iradəsinin ziddinə olaraq orqan və (və ya) toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə razı salan hər hansı formada psixi təsir göstərmədə ifadə olunur. Orqan və (və ya) toxumaların götürülməsinə məcbur etmə iki üsulla həyata keçirilə bilər: zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə. Fiziki zor tətbiq etmə sağlamlığa yüngül və ya az ağır zərər vurma formasında təzahür edə bilər. Əgər fiziki zor tətbiq etmə nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ağır

zərər vurularsa, təqsirkarın əməli cinayətlərin məcmusu qaydasında CM-in 137.2-ci və 126-cı maddələri ilə tövsif edilməlidir. Təqsirkar bu cinayəti istənilən ağırlıqlı fiziki zor tətbiq etməklə hədələmə yolu ilə də törədə bilər. Tibbi əməliyyat aparılması adı altında aldatma yolu ilə orqan və ya toxumaların götürülməsi də məcbur etmənin bir forması hesab edilməlidir.

Təhlil olunan cinayət formal tərkiblidir və zərərçəkmiş şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etməklə hədələmə yolu ilə onun orqan və (və ya) toxumaların götürülməsinə məcbur edildiyi andan başa çatmış sayılır. Təqsirkarın orqan və (və ya) toxumaları götürməyə nail olub-olmamasından asılı olmayaraq CM-in 137.2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır. Əgər təqsirkarın orqan və (və ya) toxumaları götürməsi nəticəsində zərərçəkmiş şəxs ölərsə, onun əməli CM-in 137.1-ci və 120.2.5-ci maddəsi ilə cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

CM-in 137.2-ci maddəsi üzrə cinayət subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Təqsirkar transplantasiya məqsədi ilə başqa şəxsi onun orqan və ya toxumalarının götürülməsinə məcbur etdiyini dərk edir və bunu arzu edir. Cinayətin motivi təqsirkarın sağlamlığını qorumaqda maraqlı olduğu şəxs üçün zərərçəkmiş şəxsdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaları əldə etməyə göstərdiyi səylərdə ifadə olunur. Cinayətin məqsədi zərərçəkmiş şəxsin orqan və (və ya) toxumalarının transplantasiya üçün götürülməsindən ibarətdir. Başqa məqsədlərlə (məsələn, tibbi tədqiqatlar aparılması) orqan və (və ya) toxumaların götürülməsinə məcbur etmə CM-in 137.2-ci maddəsi ilə tövsif oluna bilməz.

Qeyd olunan cinayətin subyekti cinayət törədənədək 16 yaşına çatmış hər hansı anlaqlı fiziki şəxs ola bilər.

CM-in 137.3-cü maddəsində nəzərdə tutulan cinayət 137.2-ci maddədə göstərilən cinayətin ağırlaşdırıcı tərkibini əks etdirir. Bu maddədə eyni əməllərin: a) zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə; b) zərərçəkmiş şəxsin təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmasından istifadə etməklə törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

Azərbaycan Respublikası CM-nin 137-ci maddəsində təsbit olunan cinayət əməlinin Rusiya Federasiyasının 13 iyun 1996-ci ildən qüvvədə olan CM-nin "İnsan orqanlarının və toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə" adlanan 120-ci maddəsi, Ukrayna Respublikasının 5 aprel 2001-ci ildən qüvvədə olan CM-nin "İnsan orqanlarının və ya toxumalarının transplantasiyasının qanunla müəyyən edilmiş qaydasının pozulması" adlanan 143-cü maddəsi ilə oxşar cəhətləri çox olsa da, 26 sentyabr 2004-cü ildən qüvvədə olan Türk Cəza Qanununun "Orqan və toxuma ticarəti" adlanan 91-ci maddəsi ilə nisbətən fərqli quruluşa malikdir.

AR CM-də donor qismində istifadə məqsədi ilə insan qanının məcbur etmə və ya aldatma yolu ilə götürmə kimi əməl kriminallaşdırılmır. Ukrayna Respublikasının CM-də donorluğa məcbur etmə əməli kriminallaşdırmışdır (144 maddə). Türk Cəza Qanunun 91-ci maddəsi həyatda olan insanla yanaşı, həm də ölmüş şəxsin orqanlarının və ya toxumalarının qanunsuz götürülməsini də nəzərdə tutmuşdur. TC Qanunun 91-ci maddəsinin 2-ci bəndində deyilir: hüquqa zidd olaraq ölmüş şəxsdən (meyitdən) orqanlar və toxumalar alan şəxs, bir ilədək həbs cəzası (azadlıqdan məhrum edilməklə) ilə cəzalandırılır. Biz Türk Cəza qanununun mövqeyini daha düzgün sayırıq.

İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında 28 oktyabr 1999-cu il AR qanunun 9-cu maddəsinə görə, Şəxs sağlığında donorluğa yazılı razılığını bildirərsə, ölümündən sonra transplantasiya məqsədi ilə onun orqan və (və ya) toxumalarından istifadə oluna bilər. Şəxs bu məsələyə münasibətini bildirməyibsə,

ölümündən sonra yaxın qohumlarının və ya qanuni nümayəndələrinin icazəsi ilə onun orqan və (və ya) toxumalarının götürülməsinə yol verilir. Şəxs sağlığında donorluqdan yazılı şəkildə imtina edibsə, ölümündən sonra ondan transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsinə yol verilmir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmişdir 3 nömrəli əlavədə Transplantasiya üçün insan orqan və (və ya) toxumalarının götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması Qaydalarının 5-ci bəndinə əsasən, meyitdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsinə qanunvericiliyin tələbləri gözlənilməklə, həkim konsiliumu tərəfindən bioloji ölümün baş verməsini və baş-beyin fəaliyyətinin tam dayanmasını (beyin ölümü) təsdiq edən inkaredilməz faktın olmasından sonra, tibb müəssisəsinin baş həkimi tərəfindən icazə verilir.

Donorun ölüm aktının təsdiq edilməsində transplantoloqun və ya transplantologiya işinin təşkilində bu və ya digər formada fəaliyyət göstərən hər hansı bir şəxsin iştirakı qadağandır. Meyitin məhkəmə-tibb ekspertizası zəruri olduqda, meyitdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi tibb müəssisəsinin baş həkimi ilə yanaşı, məhkəmə-tibb ekspertinin rəsmi icazəsi olduqda aparıla bilər. Lakin bu münasibətləri nizama salan normativ aktda müvafiq normanın olmaması praktik baxımdan müəyyən çətinliklər yarada bilər.

Respublikanın qüvvədə olan Cinayət Məcəlləsində cinayətlərin kateqoriyası bölgüsünə əsasən CM-nin 137-ci maddənin qadağa etdiyi əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsi az ağır cinayətlər kateqoriyasına aid edilmişdir. Belə ki, bu maddənin sanksiyasında azadlıqdan məhrum etmənin maksimum həddi 5 il müəyyən olunub. Cinayət Məcəlləsinin 137-ci maddəsində nəzərdə tutulan cinayətə görə azadlıqdan məhrum etmə növündə cəzanın yuxarı həddi beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzasıdır. Hesab edirik ki, bu cəza cinayətin ictimai təhlükəlilik dərəcəsinə uyğun deyildir. Rusiya Federasiyası CM və Ukrayna CM-də həmin əmələ görə nəzərdə tutulan cəzanın yuxarı həddi AR CM-də həmin əmələ görə nəzərdə tutulan cəza sanksiyasının yuxarı həddi ilə eynidir. Türk Cəza Qanunun 91-ci maddəsində isə insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiyasına görə, cəzanın yuxarı həddi müvafiq bəndlərdən asılı olaraq beş və on beş il müddətinə azadlıqdan məhrum etmə cəzasıdır. 20 oktyabr 2017-ci ildə AR CM-nin əksər maddələrinə əlavə və dəyişikliklər edilmişdir. Lakin həmin maddənin azadlıqdan məhrum etmə növündə cəzanın yuxarı həddinə heç bir dəyişiklik edilməmişdir. İnsan orqanlarının alqı-satqısı və onların transplantasiya məqsədilə götürülməsinə məcburetmə insanın həyatı və sağlamlığı üçün riskli olduğundan, əmələ görə cəzanın ağır olması, bəhs ediyimiz əməlin xarekterinə və ictimai təhlükəlilik dərəcəsinə görə ağır cinayətlər kateqoriyasına daxil edilməsi və sanksiyada azadlıqdan məhrum etmə cəzasının yuxarı həddinin 10 ilədək müddətə qədər artırılmasını məqsədəuyğun hesab edirik.

Yuxarıda qeyd etdiyimiz əsasları rəhbər tutaraq CM-nə 137-ci maddəsinin sanksiyasında və 137.3-cü maddəsinin dispoziyasında dəyişiklik edilməsini və CM-nə 137-1 və 137-2-ci maddələrin əlavə edilməsini təklif edirik:

Maddə 137. **İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə**

137.1. İnsan orqanlarının və ya toxumalarının qanunsuz alqı-satqısı – altı min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və

ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.2. Zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etmə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.3. Eyni əməllər: bir qrup şəxs tərəfindən; yetkinlik yaşına çatmayan barəsində, təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində; zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və sair cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə – beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 137-1. Ölmüş insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə**

137-1.1. Ölmüş insan orqanlarının və ya toxumalarının qanunsuz alqı-satqısı – iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.2. Tibb işçilərinə, yaxın qohumlarına və digər şəxslərə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə ölmüş insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etmə – iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 137-2. Donorluğa məcburetmə**

137-2.1. İstifadə məqsədi ilə donor qismində insan qanını məcburetmə və ya aldatma yolu ilə götürmə – iki ilədək müddətə vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki min manatdan dörd min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə cəzalandırılır.

137-2.2. Eyni əməllər: 137-2.2.1. təqsirkardan maddi cəhətdən asılı olan və ya köməksiz vəziyyətdə olan şəxslər və ya yetkinlik yaşına çatmayanlar barəsində törədildikdə;

137-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya satış məqsədi ilə törədildikdə – dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi (1991-2008). Bakı: Hüquq ədəbıyyatı, 2008, 380 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı: Digesta, 2012, 1104 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı: Digesta, 2018, 472 s.
4. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. I hissə. Bakı: Hüquq Yayın Evi, 2018-ci il, 704 s.
5. Səməndərov F.Y. Cinayət hüquq. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Bakı: Hüquq Yayın Evi, 2018, 724 s.
6. Марченко Д.И. «Преступления против жизни», гор. Ростов-на-Дону, 2004, 196 с.
7. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi https://mia.gov.az/?/az/speech/archive/
8. Azərbaycan Respublikasında insan alveri ilə bağlı cinayətlərlə mübarizə işinin vəziyyətinə dair statistik məlumatlar. 2005-2017-ci illər ... www.insanalveri.gov.az/?/az/menu/59/
9. Türk Ceza Kanunu – Mevzuat www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.5237.pdf

10. Трансплантация органов и тканей: История трансплантации *https://*edu.samsmu.ru/mod/resource/view.php?id=557
11. Уголовный Кодекс Российской Федерации от 13.06.1996 № 63-ФЗ ...
www.consultant.ru/document/cons_doc_LAW_10699/
12. Уголовный Кодекс Украины на русском языке на MEGET
https://meget.kiev.ua/kodeks/ugolovniy-kodeks/

**Гусейнова Севиндж Усуб гызы**

## УГОЛОВНО-ПРАВОВОЙ АНАЛИЗ КУПЛИ-ПРОДАЖИ И ПРИНУЖДЕНИЯ К ИЗЪЯТИЮ ДЛЯ ТРАНСПЛАНТАЦИИ ЧЕЛОВЕЧЕСКИХ ОРГАНОВ

### РЕЗЮМЕ

Статья посвящена уголовно-правовым аспектам купли-продажи человеческих органов и тканей, и принуждению к их трансплантации. В то же время производится анализ уголовного законодательства и практики отдельных государств, связанных с куплей-продажей человеческих органов и тканей и их трансплантацией с использованием сравнительных методов исследования, выявлены положительные и отрицательные аспекты соответствующих норм. Проведенное исследование так же преследовало цель улучшения санкции нормы, предусматривающей ответственность за это деяние в отечественном уголовном законодательстве. Обосновываются предложения и рекомендации по включению новых статей в УК АР, а также внесению дополнений и изменений в статью 137 Уголовного Кодекса Азербайджанской Республики, и оценки некоторых деяний как уголовных преступлений.

**Huseynova Sevinj Usub**

## CRIMINAL LEGAL ANALYSIS OF SALE-PURCHASE AND COMPULSION TO WITHDRAWAL FOR TRANSPLANTATION OF BODY ORGANS OF PERSON

### SUMMARY

The article is dedicated to the legal-criminal aspects of sale-purchase and compulsion to withdrawal for transplantation of body organs or tissues of person. The author gives analysis of criminal legislation and the practice of several countries related to sale-purchase and compulsion to withdrawal for transplantation of body organs or tissues of person using comparative research methods, and identifies positive and negative aspects of the relevant norms. The study was conducted to improve the sanction of the norms, which provides for liability in national criminal law. The author makes suggestions and proposals to include new articles in the Criminal Code of the Republic of Azerbaijan, as well as to amend Article 137 of the Criminal Code of the Azerbaijan Republic and to evaluate certain acts as criminal offenses.

**Rəyçi: h.ü.e.d. N.K.Əliyev**
**Təqdim edən: h.ü.e.d., prof. F.Y.Səməndərov**
**Daxil olma tarixi: 20.11.2018**
**Təkrar işlənmə tarixi: 07.12.2018**
**Çapa imzalanma tarixi: 24.12.2018**